

"Mən fəxr edirəm ki, Bakı Dövlət Universitetinin məzunuyam"

Heydər Əliyev

Gənc Alimlər Şurası səh. 3

Türkiyəli qonaqlar BDU-da olublar səh. 2

Özünü fəth etməyi bacar!

# Bakı Universiteti

1929-cu ildən çıxır
Təsisçi: Bakı Dövlət Universiteti

№ 02 (1438) 26 mart 2013-cü il

Elmi Şuranın növbəti iclası səh. 2

MƏNALI ÖMÜR səh. 3

Beynəlxalq əlaqələr genişlənir səh. 2

Tələbə-müəllim müsahibəsi səh. 4

Jurnalistika fakültəsində məşhur jurnalistlə görüş səh. 6

Tələbəmiz Türkiyədə konfransda səh. 2

Tələbə Elmi Cəmiyyətinin xeyriyyə tədbiri səh. 2

YENİ NƏŞR səh. 8

İnci xəzinəsindən ərmağan səh. 8

## İlham Əliyev: "Bu gün Azərbaycan həmişəkindən daha güclüdür. Bizim gücümüz tək iqtisadi və hərbi qüdrətimizlə deyil, həm də sıx birliyimizlə ölçülür"



Jurnalistika fakültəsi yenə birinci...  səh. 5

"Bahar şənliyi" şou gecəsi səh. 5

Sülh və dinclik bayramı səh. 5

"Xarici ölkələrin jurnalistikası tarixi" dərsliyinin təqdimatı səh. 6

İnsan həyatında komplekslər səh. 7

Şərq alimlərinin elmə verdiyi ilk töhfələr səh. 8

# Əziz tələbə!



**Sən daim qürur duymalısan ki, ölkəmizin ən böyük, ən nüfuzlu və ən qədim Universitetində təhsil alırsan! Bu məsuliyyət hissi ilə Sən evdə də, ictimai nəqliyyatda da, dostlarının arasında da fərqlənməlisən! İntellektual səviyyən, zövqün, rəftarın yüksək olmalıdır! Hər kəs hiss etməlidir ki, Sən Bakı Dövlət Universitetinin tələbəsisən!**

***Sənə böyük sevgi və etimadla:***
***rektor akademik***
***Abel MƏHƏRRƏMOV***

# Türkiyəli qonaqlar BDU-da olublar



**Türkiyənin Erciyes Universitetinin prorektoru, prof, dr. Hasan Yetim, Genom və Kök Hüceyrə Mərkəzinin müdiri, prof.dr.Yusuf Özkul Bakı Dövlət Universitetində olublar. Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektor, professor İradə Əliyeva, Elm və innovasiyalar üzrə prorektor, professor Aydın Kazımzadə, Beynəlxalq əlaqələr və əməkdaşlıq üzrə prorektor, dosent Şəlalə Məmmədova, Genetika kafedrasının müdiri, professor Rauf Quliyev və Mikrobiologiya kafedrasının müdiri, professor Xudaverdi Qəmbərovun iştirak etdiyi görüşdə** universitetdə mövcud tədris sistemi, tədris proqramları, magistratura və doktorantura pillələrində mövcud istiqamət və ixtisaslar, beynəlxalq qrant və layihələr, əcnəbi tələbələrin işinin təşkili və s. barədə geniş məlumat verilib.

Eyni zamanda, professorlar Hasan Yetim və Yusuf Özkul da Erciyes Universiteti barədə ümumi məlumat verib, oradakı Texnopark və Genom və Kök Hüceyrə Mərkəzinin fəaliyyətindən, elmi nailiyyətlərindən söhbət açıblar.

Görüşdə hər iki Universitet arasında tələbə, magistrant, doktorant, müəllim-tələbə heyətinin mübadiləsi sahəsində, xüsusilə, biotexnologiya, genom, genetika və biologiyanın innovasion sahələri üzrə birgə elmi əməkdaşlıq sahəsində əlaqələrin qurulması barədə fikir mübadiləsi aparılıb.

***Qonaqlar həmçinin BDU-nun bir neçə laboratoriyaları ilə tanış olublar.***

# Elmi Şuranın növbəti iclası

***Martın 14-də BDU Elmi Şurasının növbəti genişləndirilmiş iclası keçirlib.*** İclası universitetin rektoru, akademik Abel Məhərrəmov açıb və gündəliyi elan edib. Əvvəlcə BDU-nun tarixi haqqında çəkilmiş qrafik filmin təqdimatı keçirilib. Film haqqında məlumat verən HİK-in sədri dos.Fikrət Şiriyev bildirdi ki, bu film 7 aya və böyük bir kollektivin zəhməti ilə başa gəlsə də, cəmi 4 dəqiqədən ibarətdir. Bu filmdə BDU-nun zəngin tarixə məlik olduğu və bu tarixin Nizami Gəncəvi, Nəsirəddin Tusi kimi görkəmli şəxsiyyətlərdən başladığı göstərilir. Sonra AMEA-nın müxbir üzvü, professor Vasif Babazadənin sədri olduğu BDU Tədris Metodiki Şurasının bir illik fəaliyyəti haqqında hesabat məruzəsi dinlənilib. Onun məruzəsi Elmi Şurada yüksək qiymətləndirilib.

Fakültə dekanlarından Geologiya fakültəsinin dekanı, dosent Adil Xasayev və Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı, dosent Azad Qurbanovun hesabatları da Şura üzvləri tərəfindən qəbul edilib.

***Elmi adların verilməsi və cari məsələlərdən sonra Elmi Şura öz işini yekunlaşdırıb.***

# Tələbə Elmi Cəmiyyətinin xeyriyyə tədbiri

***Fizika fakültəsi Tələbə Elmi Cəmiyyəti təkcə fakültənin elmi həyatında deyil, o cümlədən ölkənin ictimai həyatında, xüsusilə də xeyriyyə tədbirlərində yaxından iştirak etməyi qarşısına məqsəd qoyub.*** Martın 9-da cəmiyyət növbəti tədbirini keçirib. Belə ki, budəfəki tədbir bir qədər fərqli olaraq, Universitetdən kənarda, yəni Bakı şəhəri Suraxanı qəsəbəsində yerləşən əqli qüsurlu uşaqlar üçün 7 №-li internat məktəbində baş tutub. Qeyd edək ki, bu tədbir TEC-nin sədri R.İsmayılovanın rəhbərliyi və fakültənin I, II, III kurs tələbələri, magistrantların iştirakı ilə təşkil olunub. Tələbələri qarşılayan internatın direktoru Afaq xanım bildirib ki, bu məktəbdə 200-ə yaxın şagirdin təlim-tərbiyəsi ilə 60-a yaxın müəllim və tərbiyəçi məşğul olur. O həmçinin deyib ki, burada bütün şagirdlər üçün hər cür şərait yaradılıb.

Tədbirin təşkili hər zaman diqqətə ehiyacı olan uşaqların böyük sevincinə səbəb olub. Tələbələrin təşkil etdiyi nahar fasiləsindən sonra uşaqlara hədiyyələr verilib və xatirə şəkilləri çəkilib. Tədbirin sonunda internatın direktoru Afaq xanım öz adından və müəllim kollektivi adından tələbələrə təşəkkür edib, bu cür tədbirlərin böyük əhəmiyyəti olduğunu vurğulayıb və belə tədbirlərin uzunömürlü olmasını arzulayıb.

***Bu cür tədbirlərin gözəl ənənəyə çevrilməsi üçün TEC gələcəkdə də tələbələrinin və magistrların belə görüşlərdə müntəzəm iştirakını təşkil etməyi nəzərdə tutur.***

# Beynəlxalq əlaqələrimiz genişlənir

**Fizika fakültəsinin dekanı professor Məhəmmədəli Ramazanov Qara Dəniz Universitetləri əməkdaşlıq şəbəkəsinin dəvəti ilə Rumıniyada olub.** Səfər zamanı prof. M.Ramazanov Buxarest Universitetinin Fizika fakültəsinin əməkdaşları qarşısında Azərbaycanda nanotexnologiyanın inkişaf persektivləri mövzusunda mühazirə edib. Mühazirədə Azərbaycanda, xüsusilə Bakı Dövlət Universitetində nanotexnologiya sahəsində aparılan tədqiqat işləri barədə, nanoelmin respublikamızda təhsil müəssisələrində tədrisinin təşkil olunması barədə ətraflı məlumat verib. Mühazirə zamanı prof.M.Ramazanov BDU-da yerinə yetirilən Beynəlxalq qrant layihələri barədə, BDU-nun Nanoaraşdırmalar laboratoriyasının maddi texniki bazası barədə, BDU alimlərinin nanotədqiqatlar sahəsində Tomson Reyter Agentliyinin siyahısına daxil edilən jurnallardakı məqalələri barədə ətraflı məlumat verib. Mühazirədə qeyd edilib ki, dünya elminin bu mühüm istiqaməti barədə Rumıniya ilə Azərbaycan arasında əməkdaşlıq 2004-cü ildə Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin Rumıniyaya rəsmi səfərindən sonra sürətlə inkişaf etməyə başlayıb. Məruzə Buxarest Universitetinin əməkdaşlarının böyük marağına səbəb olub. Eyni zamanda fakültə əməkdaşları ilə gələcəkdə birgə qrant layihələrində iştirak etmək barədə razılıqlara gəlinib. BDU-nun Fizika fakültəsi ilə Buxarest Milli Materiallar Fizikası İnstitutu arasında əməkdaşlıq müqaviləsi hazırlanıb və imzalanıb.

Eyni zamanda prof. M.Ə.Ramazanov Buxarest Universitetinin Fizika fakültəsinin dekanı prof. Stefan Antone ilə fakültədə təhsilin təşkili, fakültənin elm tutumlu bir fakültəyə çevrilməsi, müştərək doktorant hazırlamaq məsələlərini və birgə elmi məqalələrin dərc edilməsi və qrant layihələrində iştirak edilmə yolları barədə müzakirələr aparmışdır. 28 mart 2012-ci il tarixində prof. M.Ramazanov Rumıniya Mühəndislik Nüvə Tədqiqatları İnstitutunda olmuş, institutun direktoru Rumıniya Akademiyasının üzvü D-r Nicolae Victor Zamfirlə görüşmüş və iki tərəfli əlaqələrin qurulması istiqamətində danışıqlar aparılmışdır. Avropa Birliyinin maliyyə dəstəyi ilə formalaşması nəzərdə tutulan unikal lazer siteminin qurulması və ondan istifadə edilməsində Azərbaycan alimlərinin də böyük potensiala malik olmasını nəzərə alaraq həmin mərkəzdə işə cəlb edilməsi barədə razılıqlar əldə edilmişdir. Görüş zamanı Qara Dəniz Universitetləri əməkdaşlıq şəbəkəsinin baş katibi prof. Eden Mamut və Azərbaycan Respublikasının Rumıniyadakı səfirliyinin əməkdaşı Vüqar Hüseynli də iştirak etmişdir. Səfər zamanı prof. M.Ramazanov Buxarest şəhərində ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib və abidənin önünə gül dəstəsi qoyub.

# 31 Mart soyqırımı qurbanlarının xatirəsi anılıb

***Filologiya fakültəsində professor-müəllim heyətinin və tələbələrin iştirakı ilə 31 mart soyqırımına həsr olunmuş tədbir keçirilib. Tədbirin əvvəlində Dövlət himni səsləndirilib, şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad edilib.***

Dekan, dosent Məhərrəm Vəliyev 31 mart gününü - azərbaycanlıların soyqırımını bəşəriyyətə, insanlığa qarşı törədilən erməni vandalizmi adlandırıb. O, 26 mart 1998-ci ildə ulu öndər Heydər Əliyev tərəfindən "Azərbaycanlıların soyqırımı Günü" haqqında xüsusi fərman imzalandığını və artıq hər il 31 mart tarixinin Azərbaycanlıların soyqırımı Günü kimi qeyd olunduğunu bildirib. Məhərrəm müəllim bu qırğın nəticəsində yüzlərlə yaşayış məntəqəsinin yerlə-yeksan edildiyini, minlərlə azərbaycanlının böyük amansızlıq və qəddarlıqla qətlə yetirildiyini diqqətə çatdırıb, ermənilərin Azərbaycana qarşı uzun illər boyu apardığı etnik təmizləmə, soyqırımı təcavüzü nəticəsində minlərlə insanın elindən-obasından ayrı düşdüyünü söyləyib.

Professorlar: Qara Namazov, Tofiq Hacıyev, Cəlil Nağıyev, f.e.n. Nəzakət Hüseynovanın çıxışlarında öz torpaqlarına malik olmayan ermənilərin "böyük Ermənistan" dövlətini yaratmaq üçün Rusiyanın imperiya siyasətindən alət kimi istifadə etdikləri, bunun nəticəsi olaraq Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri, torpaqlarımızın zəbti, ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı şəkildə həyata keçirilmiş soyqırımı siyasəti diqqətə çatdırılıb. 1918-ci ilin mart-aprel ayları qanlı hadisələrin kulminasiya nöqtəsi kimi qeyd edilib, həmin aylarda ermənilər tərəfindən törədilən cinayətlərin Azərbaycan xalqının yaddaşında silinməz izlər qoyduğu bildirilib. Təkcə milli mənsubiyyətinə görə minlərlə dinc azərbaycanlının məhv edildiyi, insanların diri-diri oda atıldığı bu soyqırım nəticəsində 1918-ci ilin mart-aprel aylarında Bakı, Şamaxı, Quba, Muğan və Lənkəranda 30 mindən çox soydaşımızın qətlə yetirildiyi, on minlərlə insanın öz torpağından qovulduğu bildirilib. Xocalı soyqırımının da məhz həmin siyasətin davamı olduğu vurğulanıb.

Gənclərimizə ali təhsil almaqla yanaşı, həm də vətənpərvər olmaq, ulularımızdan əmanət qalmış ana torpağın bir qarışı uğrunda hər zaman döyüşə hazır olmaq tövsiyə edilib. Tələbələrdən Cahanxanım Seyidzadənin ifasında Əhməd Cavadın "Bismillah" şeiri, Yeganə Qurbanovanın ifasında "Sarı gəlin" və Əlihüseyn Quluzadənin ifasında səslənən "Vətən" mahnısı tədbir iştirakçıları tərəfindən maraqla dinlənilib.

# Tələbəmiz Türkiyədə konfransda

***Yeni Azərbaycan Partiyasının tələbə üzvləri Türkiyənin Yozqat şəhərində bir sıra görüşlər keçiriblər.***

Səfər çərçivəsində YAP-ın 600 mininci üzvü və Bakı Dövlət Universitetinin tələbəsi, BDU-nun nəzdində fəaliyyət göstərən Tələbə Həmkarlar İttifaqı Komitəsinin beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsində sədrin müavini Rövşən İsmayılov Yozqatın Yerköy Bələdiyyə sədri Mehmet Ağaoğlunu, Milli Təhsil müdiri Mehmet Yavuzu ve qayməqam Bayram Qaleni ziyarət edib.

Görüşlərdə Azərbaycan-Türkiyə münasibətlərinin durumunu müzakirə edən tərəflər bu əlaqələrin gücləndirilməsi imkanlarını dəyərləndiriblər.

Qayməqam Bayram Qale ilə görüşdən sonra R.İsmayılov Yerköy qayməqamına ulu öndər Heydər Əliyev haqqında kitabı və Azərbaycan bayrağını hədiyyə edib.

Yerköy Ədalət Peşə Yüksekokulu konfransına natiq olaraq qatılan Bozok Universiteti Fənn Ədəbiyyat fakültəsi müəllimi Əbubəkr Güngör Türkiyə və Azərbaycan arasındakı qardaşlıqdan danışıb.

***Konfransa Yerköy Bələdiyyə başçısı Mehmet Ağaoğlu, Yerköy Ədalət Peşə Yüksekokulu baş katibi Oğuz Duyğu, Yerköy İlçə Milli Təhsil Müdirliyi şöbə müdiri Cəlal Doğan və çox sayda ilçə xalqı qatılıb.***



# MƏNALI ÖMÜR

**Neft kimyası və kimya texnologiyası kafedrasının müdiri, əməkdar elm xadimi, kimya elmləri doktoru, professor Musa Rza oğlu Bayramovun bu ay 75 yaşı tamam olur. O, 1938-ci il mart ayının 4-də Gədəbəy rayonunun Söyüdlü kəndində anadan olmuşdur.**

1955-ci ildə Söyüdlü kənd orta məktəbini bitirmiş və bir il işlədikdən sonra Bakı Kənd Təsərrüfatı Texnikumuna daxil olaraq, 1959-cu ildə oranı fərqlənmə diplomu ilə başa vurmuşdur. Elə həmin il Bakı Dövlət Universitetinin kimya fakültəsinə daxil olmuş və 1965-ci ildə oranı bitirdikdən sonra təyinatla Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutuna göndərilmişdir. Həmin institutda mühəndis, kiçik elmi işçi, baş mühəndis vəzifələrində işləmişdir. M.R.Bayramov 1968-ci ildə neft-kimya ixtisası üzrə namizədlik, 1984-cü ildə isə doktorluq dissertasiyalarını müdafiə etmiş, 1986-cı ildə ona "professor" elmi adı verilmişdir. O, 1969-cu ildən Bakı Dövlət Universiteti Neft kimyası və kimya texnologiyası kafedrasında dosent, 1979-cu ildən bu günə qədər isə həmin kafedranın müdiri vəzifəsində çalışır.

Musa Bayramovun təşəbbüsü ilə 1991-ci ildə kafedranın nəzdində "Alkenilfenollar kimyası" elmi-tədqiqat laboratoriyası yaradılmışdır. Onun əsas elmi yaradıcılığı polifunksional monomerlər olan alkenilfenolların sintezi və onlar əsasında reaksiyayaqabil oliqomer və polimerlərin, kompozisiya materiallarının alınması ilə bağlıdır. Rəhbərliyi ilə hazırlanmış yeni nəsil doymamış fenol-formaldehid oliqomerləri əsasında "VK 50" yapışqanı aviasiyada uğurla tətbiq edilmişdir.

M.R.Bayramov şərəfli bir yol keçmişdir. O, uzun illərdir, Y.H.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutunda fəaliyyət göstərən ixtisaslaşmış müdafiə, BDU-nun və fakültə Elmi şuralarının üzvüdür. İşlədiyi müddət ərzində tələbələrin və kollektivin hörmətini qazana bilmişdir.

Uzun illik elmi-pedaqoji fəaliyyətinin nəticəsi olaraq onun 400-dən çox elmi əsəri, o cümlədən 50 müəlliflik şəhadətnaməsi, 4 dərslik, 6 dərs vəsaiti, 1 monoqrafiyası işıq üzü görmüş, rəhbərliyi ilə kimya üzrə 19 fəlsəfə doktoru və elmlər doktoru müdafiə etmişdir. Yetirmələrinin içərisində xarici ölkə vətəndaşlarının olması, eləcə də dünyanın tanınmış elm mərkəzləri ilə əlaqəsi Azərbaycan elminin xaricdə layiqli təmsili kimi qiymətləndirilir.

Musa müəllimin elmi-pedaqoji fəaliyyəti dövlət başçısı və universitet rəhbərliyi tərəfindən yüksək qiymətləndirilmiş, BDU-nun 90 illiyi ilə əlaqədar Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamı ilə "əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür. O, eləcə də keçmiş SSRİ-nin "İxtiraçı", Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Qabaqcıl təhsil işçisi" döş nişanları ilə təltif olunmuş, universitet daxili "İlin alimi" və "İlin kafedra müdiri" müsabiqələrinin də qalibi olmuşdur.

**Bütün bu sadalananlarla yanaşı Musa müəllim həm də yüksək insani keyfiyyətlərə malikdir. Ona müraciət edən kəslərə həmişə xeyirxahlıq nümunəsi göstərmiş və əlindən gələn köməyi əsirgəməmişdir. O həm də Vətənini, millətini sevən bir alimdir. Hörmətli rektorumuz akademik Abel Məhərrəmovun sözləri ilə desək, "Musa müəllim işini bilən, zəhmətkeş insan, yaxşı yoldaş, eyni zamanda görkəmli alimdir..."**

**Kimya fakültəsinin kollektivi professorun 75-ci baharını ürəkdən təbrik edir, ona cansağlığı, elmi-pedaqoji fəaliyyətində yeni uğurlar arzu edir.**

***Abdulsəid Əzizov,***
***Kimya fakültəsinin dekanı, professor***

***İbrahim Məmmədov, "Neft kimyası və kimya texnologiyası" kafedrasının müəllimi, kimya elmləri doktoru***

# Gənc Alimlər Şurası yaradılıb

Gənc alim və tədqiqatçıların elmi fəaliyyətə cəlb edilməsi, onların elmi və peşəkarlıq səviyyələrinin yüksəldilməsi, aktual elmi problemlərin işlənilməsi və prioritet elmi məsələlərin həlli üçün səylərinin birləşdirilməsi, gənc alimlərin innovasiya fəaliyyətlərinin inkişaf etdirilməsi və yaradıcılıq imkanlarının tam reallaşdırılmasına kömək edilməsi üçün universitetin Gənc Alimlər Şurası yaradılıb və BDU Elmi Şurasının qərarı ilə Şuranın Əsasnaməsi qəbul edilib. Şura öz məqsədinə nail olmaq üçün gənc alim və tədqiqatçıların elmi tədqiqat işlərinin təşkili sahəsində BDU-nun ayrı-ayrı fakültə və elmi qurumlarının fəaliyyətini koordinasiya edir, gənc alim və tədqiqatçıların iştirakına imkan verən elmi konfranslar, seminarlar, forumlar, sərgilər və digər tədbirlər təşkil edir, onları resbublika və beynəlxalq səviyyəli elmi konfrans, seminar, qurultay, forum, sərgi və digər tədbirlərdə iştiraka cəlb edir, AMEA-nın ayrı-ayrı İnstitutları, Respublikanın digər ali təhsil müəssisələri və elmi təşkilatlarında fəaliyyət göstərən Gənc alimlər şuraları ilə əlaqə yaradır, birgə tədbirlər təşkil edir və həyata keçirir, BDU-da, respublikanın və xarici ölkələrin elm və tədris müəssisələrində elmi tədqiqat və innovasiya fəaliyyəti üzrə müsbət təcrübəni öyrənir, təhlil edir, ümumiləşdirərək yayılmasını və tətbiq edilməsini təşkil edir, BDU-da çalışan gənc alim və tədqiqatçıların BDU, regional və beynəlxalq səviyyəli proqram və layihələrdə iştirak etməyə cəlb edilməsini təmin edir, onların respublika və beynəlxalq səviyyəli mədəni tədbirlərdə iştiraka cəlb etməklə onların mədəni səviyyələrinin inkişaf etdirilməsini və s. təmin edir.

19 nəfərdən ibarət Gənc Alimlər Şurasının sədri fizika fakültəsinin, Nanomaterialların kimyəvi fizikası kafedrasının müəllimi, kimya elmləri üzrə fəlsəfə doktoru Flora Hacıyevadır.

**Qeyd edək ki, BDU-da 35 yaşınadək alimlik dərəcəsi almış 62 gənc alim çalışır, 400-dən çox gənc doktorant və 1500 magistrant elmi tədqiqat işi aparır.**

# Universitetdaxili "50+50" qrant müsabiqəsinin qalibi

*2012/2013-cü tədris ilində universitetdaxili "50+50" qrant müsabiqəsinin qaliblərindən biri də coğrafiya fakültəsinin magistrantı Dadaşova Xumarxanımdır. X.Dadaşovanın müəllifi olduğu məqalədə Böyük Qafqazın cənub yamacında antropogen təsirlərə qarşı zəif dayanıqlı landşaftların ekoloji vəziyyətinin gərginlik dərəcəsinə görə qiymətləndirilməsindən bəhs edilir.*

*Qeyd edək ki, universitetdaxili "50+50" qrant proqramı Bakı Dövlət Universiteti professor-müəllim heyətinin, əməkdaşların, doktorant, magistrant və bakalavr pilləsində təhsil alan tələbələrin elm və təhsildə, universitet həyatında əldə etdikləri nailiyyətləri daha da inkişaf etdirmək üçün akademik A.M.Məhərrəmovun 09.06.2009-cu il tarixli R-48 saylı əmrilə təsis edilib.*

*Müsabiqəyə X.Dadaşova tərəfindən təqdim edilmiş məqaləni dərc edirik.*

***

***BÖYÜK QAFQAZIN CƏNUB YAMACININ TƏBİİ LANDŞAFTLARININ EKOMELİORATİV QİYMƏTLƏNDİRİLMƏSİ***

Böyük Qafqazın cənub yamacının mürəkkəb fiziki şəraiti, özünəməxsus təbiəti bitki örtüyünün qanunauyğun yayılmasına təsir göstərir. Tədqiq etdiyimiz ərazi şaquli istiqamətdə 3 bitki zonasına ayrılır:

**a)alp və subalp çəmənlikəri;**
**b)dağ çəmən və çəmən meşə;**
**c)düzən.**

Məlumdur ki, torpaq əmələ gətirən amillərdən biri də bitki örtüyüdür. Torpaqda əmələ gələn çürüntü, üzvü maddə bitki aləminin məhsuludur.

Ayrı-ayrı bitki cəmiyyətləri altında əmələ gələn torpaqlar bir-birindən kəskin surətdə fərqlənir. Bitki qalıqları torpağı üzvi maddələrlə zənginləşdirir. Üzvi maddələr isə torpaqda rütubəti tənzimləyir. Şəki-Zaqatala bölgəsində ilk dəfə geobotaniki tədqiqatları N.İ.Kuznetsov (1900), A.A.Qrossheym (1948), L.İ.İsayev (1952) aparmışlar. Sonralar V.D.Hacıyev (1962), L.İ.Prilipko (1964) həmin tədqiqatları davam etdirmişlər.

Tədqiqatlar dəniz səviyyəsindən 2400-3000 m hündürlükdə yerləşən alp çəmənlikləri ərazidə aparılmışdır. Alp çəmənlikləri orada bəzən daha yüksək hipsometrik hündürlükləri əhatə edir. Çəmən-bitki örtüyü nisbətən kiçik sahələrdə yayılmışdır. O, bəzi hallarda ləkələr şəklində yerləşir. Həmin bitkilər ən çox narın torpaqlı yamaclarda əmələ gəlir. Burada bitkilər mezofil və alçaqboyludur.

Alp çəmənlikəri əsasən taxıl fəsiləsi nümayəndələrinin, paxlalı bitkilərin olması ilə seçilir. Burada çayır, kəkotu, dağ nanəsi, dağ çiçəyi, baldırqan, çobanyastığı, qaymaq otu və s. də rast gəlmək mümkündür.

Subalp çəmənlikləri dəniz səviyyəsindən 1800-2600 m hündürlükdə yerləşməklə böyük sahələri əhatə edir. Burada əsasən çoxillik mezofil bitkilər yayılır. Oradakı hündürboylu çəmən bitkiləri yaxşı keyfiyyətə malik olub, mal-qara tərəfindən böyük iştaha ilə yeyilir. Alçaqboylu çəmənlərdən əsasən yay otlağı kimi istifadə olunur.

Meşə zonasında palıd, vələs, yabanı şabalıd, qoz, fındıq, əzgil və s. kollara rast gəlinir. Düzən zonada qarğac, söyüd, qovaq, çəkil ağacları və üçyarpaq yonca, bağayarpaı, yarpız, pürən, cil, çayır, quşotu və s. kimi təbii ot bitkiləri, dağlıq zonada isə qaratikan, böyürtkən, ardıc, cır nar və s. kol bitkiləri geniş yayılmışdır. Bölgədə mədəni bitkilərdən tütün, taxıl, qarğıdalı, çəltik, üzüm, çay, qızılgül və çoxillik otlar becərilir.

Bölgənin dağ yaylaqları ərazisində aparılan çöl-torpaq tədqiqatı və laboratoriya analizinin nəticələrinə əsasən, orada aşağıdakı torpaq tip və yarımtiplərinin yayıldığı müəyyən edilmişdir:

**1.yuyulmuş ibtidai dağ-çəmən;**
**2.yuyulmuş çimli dağ-çəmən;**
**3.yuyulmuş bərk çimli dağ-çəmən.**

Bu torpaqlar isə öz növbəsində mexaniki tərkibinə, torpaq qatının qalınlığına görə növ müxtəlifliklərinə ayrılmışdır.

Tədqiqatımız dağ-çəmən torpaqları zonasında aparıldığından bu torpaqların morfoloci və genetik xüsusiyyətlərinin izahı verilmişdir.

Yuyulmuş ibtidai dağ-çəmən torpaqları. Bu torpaqlar yay otlaqlarının müxtəlif sahələrində yayılmaqla, ümumi sahənin 1893,0 hektarını və ya 0,76%-ni təşkil edir.

Həmin torpaqların yayıldığı ərazinin relyefini dərələr şiddətli dərəcədə parçalayır, orada torpaq əmələgətirən süxurlar əsas etibarilə deluvialdır və torpaqlar ancaq örüş kimi istifadə olunur.

Tədqiq edilən torpaqlar mexaniki tərkibinə görə orta və yüngül gillicəlidir. Bunu fiziki gilin və lil hissəciklərinin dəyişməsindən də aydın görmək olar.

Lil hissəciklərinin profil boyu 7,88 - 11,24%, fiziki gil isə 28,44 - 40,08% arasında dəyişir.

Mexaniki tərkibə uyğun olaraq hiqroskopik nəmlik profil boyu 2,7 - 4,2% arasındadır. Yuyulmuş ibtidai dağ-çəmən torpaqları üzvi maddələrlə yaxşı təmin olunmuşdur. Belə ki, ümumi humusun miqdarı üst qatda 5,37-5,67%, aşağı qatda 5,02%, profil boyu ümumi azotun miqdarı isə 0,27-0,38% arasındadır.

Yuyulmuş ibtidai dağ-çəmən torpaqlarının udma tutumu müxtəlifdir. Belə ki, udulmuş əsasların cəmi profil boyu (100q. torpaqda) 24,50-32,98 mq.ekv.-dir.

Yuyulmuş çimli dağ-çəmən torpaqları. Bu torpaqlar yay otlaqlarının müxtəlif hissələrində yayılmaqla, ümumi sahənin 6781,6 hektarını və ya 2,73%-ni təşkil edir. Ərazinin relyefi şimal-şərqə doğru alçalan yamaclardan ibarətdir.

Yuyulmuş dağ-çəmən torpaqları üzvi maddələrlə zəngindir. Belə ki, humusun miqdarı 7,35-10,00%, ümumi azot isə 0,37-0,50% arasında dəyişir.

Bu torpaqların udma tutumu müxtəlifdir, belə ki, udulmuş əsasların cəmi profil boyu 16,98-35,88 mq.ekv. arasındadır.

Yuyulmuş bərk çimli dağ-çəmən torpaqları yay otlaqlarının müxtəlif hissələrində yayılmaqla, onun ümumi sahəsinin 4033,9 hektarını və ya 1,62%-ni əhatə edir. Həmin torpaqların yayıldığı ərazinin relyefi dərələrlə müxtəlif istiqamətlərdə parçalanmışdır. Torpaq əmələgətirən süxurlar prolüvial-lelüvialdır. Ərazi ancaq örüş kimi istifadə olunur. Bu torpaqlar mexaniki tərkibinə görə orta gillicəlidir. Profil boyu lil hissəcikləri 9,40-11,80%, fiziki gil 42,12-45,68%, hiqroskopik nəmlik 4,3-4,5% arasındadır. Yuyulmuş bərk çimli dağ-çəmən torpaqları üzvi maddələrlə yaxşı təmin olunmuşdur. Humusun miqdarı üst qatda 10,37%, aşağı qatda isə 9,51%, ümumi azotun miqdarı profil boyu 0,46-0,52% arasında dəyişir.

Özünü fəth etməyi bacar! Bakı Universiteti

Tələbə-müəllim müsahibəsi

*Budəfəki müsahibimiz coğrafiya elmləri doktoru, professor Çingiz İsmayılovdur. Qazandığı qrant layihələr hesabına dünyanın 30-dan çox dövlətində keçirilən beynəlxalq elmi konfrans və simpoziumlarda iştirak etmiş, Xəzəryanı dövlətlərin iqtisadi məsələləri üzrə koordinatoru, Azərbaycanın coğrafiya elmini dünya miqyasında layiqli şəkildə təmsil edən Çingiz müəllimlə müsahibə mənim də gözlədiyim kimi həm çox maraqlı, həm də kifayət qədər səmimi keçdi. Müəllimim haqda yeni məlumatlar əldə etdim. Düşünürəm ki, bu, oxucular üçün də fmaraqlı olacaq. Çünki həmsöhbətim olan Çingiz müəllim nəinki coğrafiya, eyni zamanda digər elm sahələrində də kifayət qədər məlumatlı, sözün əsl mənasında çox ziyalı bir insandır. Hərtərəfli intellektə malik belə bir insanın tələbəsi olmaqla yanaşı, həm də onunla həmsöhbət olmaq, doğrudan da, çox xoşdur. Coğrafiya elmləri doktoru, professor olmasına baxmayaraq, ona bu şəkildə müraciət olunmasından heç xoşu gəlməyən Çingiz müəllim ziyalı olduğu qədər də sadə və səmimi, işinin peşəkarı olan bir insandır.*



# Çingiz İsmayılov:

# Bütün insanlar məqsədyönlü olmalıdırlar ki, istəklərinə nail olsunlar

**- Özünüzü necə təqdim edərdiniz?**

- Azərbaycan Respublikasının vətəndaşı, Bakı Dövlət Universitetinin müəllimi Çingiz İsmayılov.

**- Necə tələbə olmusunuz?**

- Əlaçı tələbə olmamışam. Tək-tük hallarda "3"-üm olub, amma əsasən "4" almışam. Tələbəlikdə, xüsusən II kursdan sonra mənim iqtisadi coğrafiyaya çox böyük marağım olub. Çünki o vaxtdan anlamışam ki, bu çox dinamik inkişaf edən bir elm sahəsidir və çoxlu inkişaf istiqamətləri var. Oxuduğum müddətdə yalnız mənim üçün deyil, eləcə də digər tələbələr üçün ən maraqlı hadisələr çöl yay praktikaları olub.

**- Necə oldu ki, coğrafiyaşünas olmaq qərarını verdiniz?**

Doğrusu, mən coğrafiyaşünas olmaq arzusunda deyildim, çünki İncəsənət İnstitutuna daxil olmaq həvəsində idim, aktyor olmağı çox istəyirdim. Rus bölməsini bitirmişdim deyə sənədlərimi götürmədilər, çünki orada rus bölməsi yox idi. Elə həmin il mən universitetin coğrafiya fakültəsinə daxil oldum.

**-Ailənizdə sizdən başqa bu istiqamətdə fəaliyyət göstərən varmı?**

Ailəmizdə heç kim coğrafiyaşünas olmayıb, hamı həkim idi, yalnız mən coğrafiyaşünas oldum.

**- Bir az da ailəniz haqqında danışaq. Hamı üçün maraqlıdır: ailənizdə Sizin yolunuzu davam etdirən layiqli davamçınız varmı?**

- Ümumiyyətlə, dünya təcrübəsində belədir ki, hər bir savadlı şəxsin davamçıları onun məktəbini yaradır və bu şəkildə elmi inkişaf davam edir. Amma təəssüflər olsun ki, bizdə bu tip məktəb yaratmaq ənənəsi formalaşmayıb. Bu heç də o demək deyil ki, bizdə istedadlı alimlər yoxdur. Bizim kifayət qədər savadlı alimlərimiz var. Çox istərdim ki, mənim də ardıcıllarım olsun. Bir faktı sizə deyim, olmuş bir hadisədir. Adını deməyəcəyəm, amma akademiyada çox dəyərli bir alimin 30 il fəaliyyət göstərdiyi bir elmi laboratoriya var idi. Çox mükəmməl bir laboratoriya idi. Rəhbərlik belə qərara gəldi ki, həmin alim üçün institut yaratsın. Ondan soruşdular ki, özündən sonra həmin laboratoriyaya kimi rəhbər təklif edirsən? O isə cavabında dedi ki, belə bir adam yoxdur. Ona görə də həmin institut yaradılmadı. Elmi məktəbin yaradılması çox mühüm amildir. Axı elm inkişaf etməlidir. Bizdə isə nəyə görə isə hamı tək olmaq istəyir, davamçı yetişdirmək haqda düşünən azdır. Mənim bir qızım var. O da coğrafiyanı bitirib, amma bu sahədə çalışmaq istəmədi. Lakin burada qazandığı biliklər, əlbəttə ki, onun çox xeyrinədir. Mən heç təkid etmədim ki, o, mütləq mənim yolumu davam etdirməlidir. Kim hansı sahə üzrə özünü təsdiqləmək istəyirsə, həmin sahə üzrə də çox ciddi, məqsədyönlü şəkildə çalışmalıdır ki, istəyinə də nail ola bilsin.

**-Tələbələrlə necə ünsiyyətə önəm verirsiniz?**

Baxmayaraq ki, artıq 35 ildir, universitetdə müəlliməm, amma hələ də özümü klassik tipli müəllim hesab etmirəm, tədqiqatçı və araşdırmaçı hesab edirəm. Çünki ənənəvi metodika mənə tamamilə yaddır. Həmişə çalışmışam ki, tələbələrdə sərbəst düşünmə qabiliyyətini formalaşdırım. Tələbələrə həmişə tövsiyə edirəm ki, təhlil etməyi bacarın, fikrinizi çəkinmədən söyləyin, düşünün ki, siz auditoriyada özünüzü təsdiq etməlisiniz. Burada əsas məqsəd diplom almaq deyil, özündə düşüncə qabiliyyətini formalaşdırmaq olmalıdır. Mən tələbələrimə deyirəm ki, hər biri təkrarolunmaz bir planetdir. Onlar öz təkrarolunmazlıqlarını şəxsi keyfiyyətləri ilə sübut etməli, şəxsiyyət və ziyalı olmağı bacarmalıdırlar.

**-Tələbələrinizdə bəyəndiyiniz və bəyənmədiyiniz cəhətlər... Xaricdəki tələbələrlə bizim tələbələr arasında gördüyünüz fərqlər çoxdurmu və hansılardır?**

- Əlbəttə, fərq var. Bu fərq təkcə təhsillə deyil, həm də cəmiyyətlə bağlıdır. Tələbələr, doğrudan da, çox fərqlidir. Tələbələrimizdə bəzi nöqsanlar var. Amma mən düşünürəm ki, bu nöqsanlar cəmiyyətdən, KİV-dən və ən əsası da televiziyadan qaynaqlanır. Əvvəllər tələbələr arasında fərqlər daha kəskin xarakter daşıyırdı, amma indi bu kimi fərqlər daha azdır. Bu da əlbəttə, internetin və nəqliyyatın inkişafı ilə bağlıdır. Mən test üsulunun tətbiqinə çox sevindim, çünki bu ən obyektiv üsuldur. Amma görünür ki, yenə də boşluqlar var, çünki auditoriyalarda bəzən çox zəif tələbələrə də rast gəlinir. Tələbələrə deyirəm ki, siz məndən "istifadə" etməlisiniz, qapıdan qovsam, pəncərədən daxil olmalısınız ki, müəllim, öyrədin bizi, bizə yeni informasiyalar verin. Məsələn, bu yaxınlarda bir qız tələbəm mənim elektron poçt ünvanıma yazıb deyirdi ki, mən bu sahə ilə çox ciddi məşğul olmaq istəyirəm. Mən buna, əlbəttə, çox sevindim və ona dedim ki, sənə əlimdən gələn köməyi etməyə hazıram.

**- Bəs Sizcə, insanda hansı keyfiyyət olmalıdır ki, o daha böyük uğurlar qazansın, nəyə isə daha asan nail olsun?**

- Əvvəla onu deyim ki, nəyin isə asanlıqla əldə olunmasının heç tərəfdarı deyiləm. Çünki çox asanlıqla əldə edilən şey dəyərli olmayacaq. Amma uğrunda nə qədər çox çalışsanız, çox zəhmət çəksəniz, o, sizin üçün həddən artıq dəyərli olacaq. Tələbələrimə də deyirəm, məsələn, baxın, şir təbiətdə ceyranı tutub necə yeyir, bir də baxın ki, zooparkda onun qarşısına ət qoyulanda onu necə yeyir. Birinci halda, əlbəttə, özü zəhmət çəkdiyi üçün çox iştaha ilə, ikinci halda isə aciz bir vəziyyətdə yeyir, çünki buna özü nail olmayıb. Bu qayda insanlar üçün də keçərlidir. Hər insanda hər hansı müəyyən bir bacarıq vardır ki, o insan məhz həmin cəhətinə görə digərlərindən seçilir. Bütün insanlar məqsədyönlü olmalıdırlar ki, istəklərinə nail olsunlar.

**- Hansı xarici ölkələrdə olmusunuz?**

- Mən qazandığım qrant layihələr hesabına 30-a yaxın xarici dövlətdə olmuşam. ABŞ-da Conson Universitetində, Sarbon Universitetində olmuşam. Yəni bunların hamısı rəsmi konfranslar olub. Bir neçə mühazirə demişəm. Qazaxıstanda 2001-ci ildən Neft-Qaz İnstitutunun professoruyam. Burada isə nisbətən daha gec, yeni 2005-ci ildən professoram. İsveçrədə, Almaniyada, Küveytdə, Polşada olmuşam. Rusiyada dəfələrlə olmuşam.

**- Bəs ən unudulmazı və maraqlısı hansı olub?**

- Çoxu maraqlı olub. Məsələn, 1992-ci ildə İranda ilk dəfə islam ölkələrinin coğrafiyaşünaslarının beynəlxalq konqresində iştirak etmişəm. İsveçrədə Baden Universitetində Beynəlxalq Coğrafiya Cəmiyyətinin konfransında olmuşam. Konfrans sərhədlərlə, o cümlədən də Qarabağ məsələsi ilə bağlı olduğundan mənim üçün çox maraqlı idi. Bolqarıstanda siyasi bir polemikaya da düşdüm. Ukraynanın Donetsk Universitetindən gələn əslən erməni olan bir alimə respublikamızın iqtisadi inkişaf tempinin çox sürətli getdiyini isbat etdim. Ermənilərlə dəfələrlə belə mübahisələrim olub. Çox şadam ki, onlara həmişə layiqli cavablar vermişəm.

**- Çingiz müəllim, layihələriniz haqqında bizə nə deyə bilərsiniz? Nə kimi yenilikləriniz var?**

- Bir neçə istiqamətdə layihələrimiz var. Kənd turizmi, çay turizmi ilə bağlı layihəmiz də var. Bunlardan əlavə, dağətəyi ərazilərimizdə antropogen səhralaşma və ondan qorunma ilə bağlı regionların iqtisadi inkişaf proqramı çərçivəsində layihələrimiz də var. Daha sonra biz Xəzərin ekoloji proqramı çərçivəsində Xəzər gününü qeyd etdik. Bu da beynəlxalq layihə idi. Xəzərin beynəlxalq mühafizə fondunun keçən il keçirdiyi müsabiqədə mən qalib oldum. Mənə çox gözəl bir "İ-pad" verdilər (gülür).Bu, keçən ilin dekabrında baş tutan bir müsabiqə idi. Sonra biz daha yeni iki layihə vermişik. Bunlara da demək olar ki, ilkin razılıq alınıb. Bunlardan biri gənclər təşkilatına yönəldilmiş "Yaşıl iqtisadiyyat" layihəsidir. Ümumiyyətlə, layihələrimiz çoxdur.

**- Çingiz müəllimin uğurlarının sirri nədədir?**

- Mənə professor deməyin. Belə müraciəti sevmirəm. Deməzdim ki, nə isə böyük uğur qazanmışam. Hələ də özümdən narazıyam. İnsan özündən razı olmağa başlayanda onun inkişafı dayanır. Düşünürəm ki, istədiklərimin cəmi 30-40%-ni qazanmışam. Fikrimcə, nəyə isə nail olmaq üçün mütləq çox məqsədyönlü olmaq lazımdır. Bu halda, doğrudan da, uğur qazanmaq olar. Özünü düzgün realizə etmək üçün bu, mütləq cəhətdir. Mən ictimai əsaslarla Xəzər Mərkəzinin rəhbəriyəm. Bizim mərkəz 2000-2005-ci illərdə respublikamızın iqtisadiyyatına 150-200 min dollar gəlir qazandırıb. 5 il ardıcıl olaraq İslam İnkişaf Bankı ilə əməkdaşlıq edərək bu layihələri ölkəyə gətirmişəm. Özü də təkcə Azərbaycan üçün deyil, Mərkəzi Asiyanın müsəlman ölkələrinin də xeyrinə olan layihələr idi. Həmin ölkələrin Xarici İşlər, Maliyyə, İqtisadi İnkişaf nazirliklərindən rəsmi nümayəndələr treninqlərdə iştirak edirdilər, biz isə onlara respublikamızın inkişafını göstərirdik. Muğamlarımızı göstərirdik, onlar isə buna valeh olurdular. Bilirsiniz, bu bir növ həm də ölkəmizin təbliği deməkdir. Mən 1980-1989-cu illər ərzində gənclər sədri olmuşam. Bu da ictimai əsaslarla baş tutan bir vəzifə idi. 1997-1999-cu illərdə isə magistrlər və elm üzrə dekan müavini olmuşam. Bir şeyə çox şadam ki, xaricdə olduğum zaman Azərbaycan elminin adını daima uca tuturam.

**- Çingiz müəllim, hansı dilləri bilirsiniz?**

- Məktəbdə alman dilini çox yaxşı bilirdim. Lakin sonradan bu dili çox işlətmədiyim üçün nisbətən unutdum, amma yenə də danışılanı çox yaxşı başa düşürəm. Sonradan ingilis dilini özüm öyrəndim. Azərbaycan, rus və ingilis dillərində, yəni 3 dildə çap olunmuş coğrafi terminlər lüğətinin müəllifiyəm. Digər dillərdə terminlərin düzgün qarşılığını çox yaxşı bilirəm.

**- Hobbilərinizi bilmək maraqlı olardı...**

- Hobbilərim çoxdur. Qədim tarixi çox sevirəm. Mənə hətta Herodotun yunan dilində "Tarix" kitabı var. Ədəbiyyatı çox sevirəm. Müasir bestsellerlərdən Şilleni, Qabriel Markezi, Paualo Kuelonu oxuyuram. Muğamlarımızı çox sevirəm, muğam müsabiqələrini həmişə izləyirəm. Futbol azarkeşiyəm, sevdiyim komanda "Barselona", oyunçu isə Messidir. İncəsənətin müxtəlif növləri ilə maraqlanıram. Memarlığa böyük marağım var. Dünyanın ən məşhur memarlarının işlərini araşdırıram.

**- Deyəsən musiqiyə də böyük marağınız var...**

Uşaqkən bir sıra Avropa rəqslərini oynayırdım. Musiqi ilə də məşğul olmuşam. Dünya musiqisini çox sevirəm. Vivaldi lirikasını hədsiz bəyənirəm. Şopenin əsərləri çox maraqlıdır. Ştrausun kompozisiyaları isə demək olar ki, tamam ayrı bir aləmdir. Öz bəstəkarlarımızdan Ələkbər Tağıyevin əsərlərini çox bəyənirəm. Rəşid Behbudovu, Müslüm Maqomayevi dinləməyi çox sevirəm. Müasir ifaçılar zövqümcə deyil. Gənclərə də tövsiyəm o olardı ki, klassik cazla maraqlansınlar, Lui Amstronqu, Dükkeni dinləsinlər. Bizim qrupda 3 nəfər: mən və digər 2 qrup yoldaşım ritm gitara, bas gitara və solo gitarada ifa edirdik. Kişnyovda təcrübədə olanda biz ərəb tanqosu ifa edirdik. Hamı gəlib qulaq asırdı. Ələsgər Ələkbərov, Adil İskəndərov, İsmayıl Osmanlı, Hökümə Qurbanova kimi aktyorların səhnə fəaliyyətini bəyənməmək mümkün deyil. Teatr hər bir millətin mədəniyyət göstəricisidir.

**- Maraqlı müsahibə üçün təşəkkür edirik...**

- Siz də sağ olun. Uğurlar...

**Xumarxanım Dadaşova,**
**Coğrafiya fakültəsinin magistrantı**







# Jurnalistika fakültəsi dördüncü dəfə birinci olub

*Tələbə Həmkarlar İttifaqı Komitəsi tərəfindən ənənəvi Novruz şənliyi keçirilib. Tədbiri giriş sözü ilə açan rektor, akademik Abel Məhərrəmov bayram təbriklərini çatdırıb. Bu bayramı birlik, həmrəylik, qardaşlıq rəmzi kimi xarakterizə edən rektor, onun tarixi əhəmiyyətindən bəhs edib.*

Sonra 17 fakültənin hər birinin böyük zövqlə ərsəyə gətirdiyi Novruz səhnəsinə baxış keçirilib. Rektoru qarşılayan fakültə dekanları və tələbələr hazırladıqları səhnələr haqqında məlumat veriblər. Onların hər birinin işi ilə ayrı-ayrılıqda tanış olan rektor bayramlarını təbrik edib, xoş günlər arzulayıb.

Münsiflər heyətinin seçimilə qaliblər müəyyənləşib.

Novruz adət -ənənələrinin, simvollarının təqdim olunması ilə bağlı fakültələr arasında keçirilən bu müsabiqədə Jurnalistika fakültəsi birincilik qazanıb. İkinci yeri iki fakültə - Ekologiya və Torpaqşünaslıq, Hüquq fakültəsi, üçüncü yeri isə Beynəlxalq münasibətlər və iqtisadiyyat, Biologiya fakültələri tutublar.





Digər fakültələrin hamısı dördüncü yerin sahibləri oldublar.

Fakültələrin hər birinə pul mükafatı təqdim edilib.

**Qeyd edək ki, əvvəlki Novruz tədbirlərində də uğurla iştirak edən Jurnalistika fakültəsinin bu, dördüncü birinciliyidir. Tələbələrin sözlərinə görə, bu işdə fakültə dekanı, professor Şamil Vəliyevin, dekan müavini Əli Hacıyevin və Tələbə Həmkarlarının xüsusi xidməti var.**

***Tədbir konsert proqramı ilə başa çatıb.***

# Sülh və dinclik bayramı

*Novruz bayramının on min ildən artıq tarixi var. Bu bayram yazın gəlişi, təbiətin oyanışı, əkin-biçinlə bağlıdır. Novruz bayramının ilkin əlamətləri hətta Qobustan qayaüstü təsvirlərində də öz əksini tapıb. Burada günəş, əkin şəkilləri yer alıb. Bayramın tarixi və bu günü barədə danşmaq məqsədilə Asiya və Afrika ölkələri tarixi kafedrasının dosenti Atamoğlan Məmmədli ilə söhbətləşdik:*

**- Novruz bayramı Azərbaycanda necə yayılıb? Bu bayramın dinlə bağlılığı varmı?**

- Bu bayram əsasən vaxtilə atəşpərəstliyin yayıldığı Şərq ölkələrində qeyd edilir. Sivil mədəniyyətimiz formalaşan gündən bu bayram bizdə də qeyd edilməyə başlamışdır. Düzdür, sonralar Novruzu dinlə əlaqələndirməyə çalışırdılar. Bu isə bir çox hadisələrin 21 mart tarixi ilə üst-üstə düşməsi ilə bağlı idi. Çox vaxt bunu İmam Əlinin taxta çıxdığı günlə bağlayırlar, halbuki elə Nadir şah Əfşar özü də həmin gün hakimiyyətə gəlmişdir. Hal-hazırda Novruz həm Şimali, həm də Cənubi Azərbaycanda böyük təmtəraqla qeyd olunur. Burada çərşənbələr 4 ünsürə görə bölünüb. Zaman-zaman hökmdarlar bu ünsürlərə sayğı ilə yanaşmışlar. Məsələn, Ağa Məhəmməd şah Qacarın Tehrandan Tiflisə yola düşərkən əkin sahəsinin yanında dayanıb bir ovuc torpağı qoxlaması da öz növbəsində hökmdarların ünsürlərə olan hörmətinin bariz nümunəsidir.

**- Novruzu sırf Azərbaycanın milli bayramı saymaq olar?**

- Novruz millidən əvvəl təbii bir bayram olub. İnsan özünü tam dərk etməmişdən öncə bu bayram mövcud idi. Millətlər yaranmamışdan çox əvvəllər Novruz qeyd edilirdi. Yaşadığımız regionda adət-ənənələri ilə sıx bağlı olan xalqlar yaşayıb. Eyni dilə, eyni dinə söykənən millətlər bu bayramı qeyd edib. Buna baxmayaraq, sonradan Azərbaycanda o, milli mahiyyət kəsb edən bayrama çevrilib. Novruz bayramında zəngin adətlər var. Bayramın mənəvi tərəfləri çoxdur. Məsələn, küsülülərin barışması, Novruzla əlaqədar müxtəlif xalq deyimlərinin, şeirlərin, laylaların meydana gəlməsi və s. Novruz sülh və dinclik bayramıdır.

**- Sovet dövründə Novruz bayramı qadağan idi. Sizcə, bu, nədən irəli gəlirdi?**

- Xalqımız uzun müddət SSRİ-nin tərkibində yaşayıb. Sovet hökuməti həmişə çalışıb ki, bizim adət-ənənələrimiz "sovet mədəniyyəti"nin içərisində əriyib itsin. Millət özünü tanıyanda, dərk edəndə müstəqilliyə can atır. Onlar da bundan qorxurdular. Lakin buna baxmayaraq, indiki kimi təmtəraqlı, dövlət səviyyəsində olmasa da, Novruz bütün evlərdə qeyd olunurdu. İnsanlar qadağalara baxmayaraq, öz adət-ənənələrini yaşadırdılar. 1990-cı illərdən sonra bu bayram rəsmi şəkildə qeyd olunmağa başlayanda artıq lazımi effekti biz gördük.

**- Bizdə və digər xalqlarda qeyd olunan Novruz arasında hansı ortaq və fərqli cəhətlər var?**

-Adət-ənənələrin əksəriyyəti eynidir. Qəhrəmanlar, oyunlar, əlamətlər oxşardır. Məsələn, bayram öncəsi evlərin, həyət-bacanın qaydaya salınması və s.

**- Fikrinizcə, Novruz sadəcə yeyib-içmək, yoxsa adətlərimizin yaşadılması kimi yadda qalır?**

- Əlbəttə, yeyib-içmək insanlara həmişə şuxluq gətirib. Novruz da bununla müşayiət olunur, amma daha çox bu bayram millətdə vətənpərvərlik hisslərini gücləndirir. Gənc nəslin bu bayrama qatılması onlarda milli ruhun aşılanmasına müsbət təsir edir. Adicə azyaşlı uşaqların bayram vaxtı tədbirlərə aparılması, milli ənənələrimizlə tanış olması çox böyük effekt verir. Və bu baxımdan adət-ənənələrimizin yaşadılması həmin o yeyib-içməyi üstələyir.

**- Müasir dövrdə Novruzun qeyd edilməsindən razısınız mı?**

- Bu bayramda ənənələrimiz bayağı yox, təbii şəkildə xalqa çatdırılmalıdır. Mən istərdim ki, bu bayramda əsasən xeyriyyə işləri aparılsın, uşaq evlərinə, qocalar evlərinə ziyarətlər edilsin, həmçinin bayram öncəsi hər yerdə yaşıllıqlar salınsın, ağaclar əkilsin və s. İstərdim ki, Novruz həm də zamanın tələbinə uyğun keçirilsin: atıcılıq yarışları təşkil edilsin, hərə heç olmazsa, bir ağac əksin. Bəzən mən auditoriyada tələbələrdən soruşuram ki, bir ildə bir ağac əkibmi? Bunu ona görə edirəm ki, bu il ağac əkməyən gələn ilə hazırlıqlı olsun. Elə etmək lazımdır ki, bayramda hər kəs sevinsin, şənlənsin. Əslində əgər insan hər kəsə xoş niyyətlə baxırsa, onun üçün hər gün bayramdır.

**- Son olaraq, BDU tələbələrinə arzularınız...**

- Arzum budur ki, vəzifəsindən asılı olmayaraq, hər kəs xalqımız naminə çalışsın. Respublikamızın tarixinin öyrənilməsində, təbliğində və kənardan gələn ideoloji hücumların dəf edilməsində sipər rolunu oynasınlar! Ölkəmizi, xalqımızın adət-ənənələrini hərtərəfli, hər yerdə təbliğ etsinlər.Hamıya xoşbəxtlik arzulayıram!

**Rəşid Mustafazadə, Şirin Abbasov,**
**Kamil Əmirli,**
**jurnalistika fakültəsi,**
**I kurs**



# "Bahar şənliyi" şou gecəsi keçirilib

Tələbə Həmkarlar İttifaqı Komitəsi tələbələrin asudə vaxtlarının səmərəli təşkil olunması və Novruz bayramı münasibəti ilə bədii əyləncəli gecə keçirib. Şənlik 200 nəfərdən çox tələbənin iştirakı ilə BDU-nun 1 saylı yeməkxanasında baş tutub. **THİK sədri Daşqın Qənbərov BDU tələbələrinin birlikdə belə bir şənlikdə iştirak etməklərindən böyük sevinc hissi keçirdiyini bildirib.** O, bu kimi gecələrin ənənəvi olaraq hər il keçirildiyini və bundan sonrada davam etdiriləjiyini bildirib. Sonra möhtəşəm şou proqrama start verilib. Şou proqram çərçivəsində ölkənin tanınmış müğənniləri və illuziya şou təqdim olunub.

# Jurnalistika fakültəsində məşhur jurnalistlə görüş

**Fakültəmizdə məşhurlarla mütəmadi olaraq görüşlər keçirilir. Qonağımızın kim olacağını bir gün əvvəldən bildiyimizdən dərsi maraqla gözləyirdik.**

**Və budur, zəng vuruldu və müəlliməmiz məşhur radio-televiziya jurnalisti Rahib Azəri ilə auditoriyaya daxil oldu. Bir sıra layihələrin müəllifi, Azərbaycanda özəl radioların yaradılmasında iştirak edən jurnalistlərdən biri, bir çox uğurlu layihələrin müəllifi, televiziyada "Kiçik qala", "Sirdaş" kimi proqramların aparıcısı, bəzən də futbol şərhçisi kimi gördüyümüz, eyni zamanda hazırda "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin mətbuat katibi Rahib Azəri ilə olduqca maraqlı söhbət bizi gözləyirdi.**

**Müəllimənin qısa təqdimatından sonra qonağımız söhbətə başladı.**

Özü və fəaliyyəti haqqında qısa məlumat verdikdən sonra Rahib bəy mövzumuz haqqında danışmağa başladı. Mövzumuz isə "Azərbaycan radiosu yeni mərhələdə. Ölkədəki özəl radiolar" idi. Hazırda real olaraq özəl radiolarla sıx əməkdaşlıq edən bir jurnalist kimi mövzu barədə Rahib Azərinin deyiləcək sözü çox idi.

Rahib bəy çıxışında müasir radionun problemləri, janr və format, auditoriyanı cəlb etmək məsələlərinə toxundu, özəl radioların qurulması şəraitindən, ilk dövrlərdə qarşıya çıxan çətinliklərdən, onların həlli yollarından, yeni formatların efir məkanında yayımının çətinliklərindən bəhs etdi. R.Azəri bu vaxta kimi müəllifi olduğu proqramlardan danışıb əslində Azərbaycan efiri üçün bir çox ilkləri



təşkil edən həmin verilişlərin radioməkanda yaratdığı ajiotajı qeyd etdi. Qonaq vurğuladı ki, jurnalist proqramı hazırlayarkən onun kimə ünvanlandığını, yəni auditoriyanı nəzərə almalıdır; uğurun böyük hissəsini məhz bu amil təşkil edir.

Dərsimizin ikinci hissəsi qonağımızla tələbələri maraqlandıran suallar ətrafında müzakirələrə həsr olundu. Suallar olduqca müxtəlif idi: həm radionun bugünki ümumi vəziyyətinə, həm də Rahib bəyin öz layihələrinə, fəaliyyətinə dair suallar var idi.

Məsələn, tələbələrdən biri bu günə qədər Rahib bəyin ən uğurlu və ən uğursuz hesab etdiyi layihələri ilə maraqlandı. Rahib bəy cavabda bildirdi ki, ən uğursuz kimi qiymətləndirdiyi layihəsi yoxdur, radiodakı layihələrinin hamısını uğurlu hesab edir. Amma kifayət qədər uzun müddət yayımlanan "Kiçik qala" layihəsi onu bir o qədər də qane etmirdi. Halbuki auditoriya verilişi maraqla izləyirdi. Digər tərəfdən, radioda cəmi bir neçə bölüm yayımlaya bildikləri "Etimad radiosu" layihəsinin maliyyə üzündən yarımçıq qalması onu ağrıdan məsələ idi. Tələbələrdən gələn növbəti sual Rahib bəyin radioda xəbərlərin təqdimat formasına münasibəti, ümumiyyətlə, hazırkı dövrdə proqram tərtibatları barədə fikri ilə bağlı idi. Rahib bəy bildirdi ki, bu gün Azərbaycanda özəl radiolarda xəbərlərin təqdimatında bəzi çatışmazlıqlar var. Bu çatışmazlıqlar həm xəbərlərin tərtibatında, həm də diktorun təqdimatında özünü göstərir ki, əgər peşəkar radiojurnalist bunu dərhal sezirsə, tamaşaçı bunu sezmir, sadəcə həmin qeyri-təbii üslub onu yorur. Müzakirəyə qoşulan tələbələrdən biri efirdə xarici dillərdə, xüsusilə də rus dilində sözlərin işlədilməsinə onun münasibətini öyrənmək istədi. Rahib bəy qeyd etdi ki, belə sözlərin efirdə işlədilməsini düzgün hesab etmir, bunun qeyri-peşəkarlıqdan irəli gəldiyini düşünür və heç də bəziləri kimi aparıcının özünəməxsus üslubunun göstəricisi kimi görmür.

Onu da qeyd edim ki, söhbətin gedişatında Rahib Azərinin olduqca səmimi insan olduğuna şahid olduq. Yəqin buna görə idi ki, zəngin səsini eşitsək də, növbəti qrup gələnə qədər heç kəs yerindən tərpənib auditoriyanı tərk etmədi. Sonda Rahib Azəri ilə xatirə şəkli çəkdirdik. Qonaqla sağollaşarkən gələcəkdə bu görüşlərin davam etməsi barədə arzumuzu ifadə etdik.

*P.S. Görüşün təşkili üçün fakültə rəhbərliyinə və RTV kafedrasının müdiri Aynur Kərimovaya təşəkkürümüzü bildiririk.*

***Nurşərəf Yəhyazadə,***
***jurnalistika fakültəsi, II kurs***

# "Xarici ölkələrin jurnalistikası tarixi"




**Azərbaycan Mətbuat Şurasında jurnalistika fakültəsinin kafedra müdiri, professor Həmid Vəliyevin "Xarici ölkələrin jurnalistikası tarixi" kitabının təqdimatı olub.**

Tədbirdə idarə heyətinin üzvləri, KİV rəhbərləri, ictimaiyyət nümayəndələri, BDU-nun müəllimləri və tələbələr iştirak ediblər.

Mətbuat Şurasının sədri Əflatun Amaşov ömrünün yarıdan çoxunu jurnalistika sahəsində elmi axtarışlara, tədqiqatlara həsr etmiş Həmid Vəliyevin yeni dərs vəsaiti barədə ətraflı məlumat verib. Bildirib ki, xarici ölkələrin jurnalistikası tarixi müasir jurnalistikanın ən mühüm və maraqlı sahələrindən biridir. Sahəyə dünyanın bütün inkişaf etmiş ölkələrində xüsusi önəm verilir, tədqiqatların nəticəsi olaraq elmi nəşrlər, tədris vəsaitləri hazırlanır.

Qeyd edilmişdir ki, Azərbaycanda xarici ölkələrin jurnalistikası tarixi fənni ölkəmizdə jurnalistikanın tədris olunduğu ilk illərdən proqrama daxil edilib. Lakin buna baxmayaraq, ali məktəblərimizin müvafiq fakültələrində bu fənnə aid ana dilimizdə tədris vəsaitlərinin çatışmazlığı xarici dillərdə olan mənbələrə üz tutmaq zərurəti yaradıb. Bu mənada müəllifin Azərbaycan dilində yazılmış dərsliyi jurnalistika elmimizə yüksək xidmət nümunəsi hesab edilməlidir. Belə dərsliklərin yazılmasının o qədər də asan olmadığını vurğulayan Ə.Amaşov Təhsil Nazirliyinin müvafiq əmri ilə fənn proqramı kimi çap olunmuş vəsaitin "Xarici ölkələrin jurnalistikası tarixi" kursunun proqramları əsasında yazılmış ilk dərslik olduğunu söyləyib.

**Sonra Həmid Vəliyevə Mətbuat Şurasının diplomu təqdim edib.**

*Tədbirdə MŞ idarə heyətinin üzvlərindən "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, "Paralel" qəzetinin baş redaktoru Tapdıq Abbas, MŞ sədrinin müavini, Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli, Bakı Dövlət Universitetinin beynəlxalq jurnalistika kafedrasının müəllimi, tarix elmləri namizədi İlham Mazanlı, BDU-nun mətbuat və informasiya şöbəsinin müdiri Pərvanə İbrahimova, "Bakı Universiteti" qəzetinin baş redaktoru Anzulə Əmirova və digərləri çıxış ediblər.*

Bildirilib ki, yeni dərslik ilk növbədə ali məktəblərin jurnalistika və filologiya fakültələrinin tələbələri üçün nəzərdə tutulub. Vəsaitdən magistr, dissertant və doktorantlar, xarici ölkələrin jurnalistika tarixini tədris edən müəllimlər faydalana bilərlər. **Elmi redaktorları filologiya elmləri doktoru, professor Nəsir Əhmədli və filologiya elmləri namizədi, dosent Vüqar Əliyev olan** dərslikdə qədim dövrdən XX əsrin sonlarınadək keçən müddətdə dünya jurnalistikası tarixindən xronoloji ardıcıllıqla bəhs edilib, kütləvi informasiya vasitələrinin (KİV) tipoloji inkişafı prosesi nəzərdən keçirilib, müxtəlif ölkələrin və xalqların sosial, qarşılıqlı mədəni fəaliyyətinin xüsusiyyətləri, ümumi inkişaf meyilləri göstərilib.

Çıxışçılar çoxillik axtarışlarının bəhrəsi olan nəşrin müəllifinə elmi axtarışlarında uğurlar arzulayıblar.

***Sonda Həmid Vəliyev çıxış edərək tədbirin təşkilatçılarına və iştirakçılara minnətdarlığını bildirib.***

# Qəlb nəğməsi

Qəhrəmanımız ünsiyyəti təmin edən, dünənin bu günümüzə əmanəti, varlığımızın təsdiqi, müqəddəs bir dəyərdir. Əslində o, yaranışdan mənsub olduğu xalqın qəlb nəğməsidir. Səslənərkən doğmalığı, şirinliyi duyulur. Haqqında söhbət açarkən fikrimdə sanki şeirləşən nəğməyə bənzəyir:

Xəyallarda qanadlanar sevgi dolu sətirlər,

Bir dil var ki, ruha yaxın, qəlbə fərəh gətirər,

Hər kəlməsi könüldə sevdalı nəğmə bitirər...

14 ildir, yəni 1999-cu ilin noyabrından YUNESKO-nun qərarı ilə 21 fevral Beynəlxalq Ana Dili Günü kimi qeyd olunur. Məncə bu tarixin əhəmiyyətini yalnız bir gün deyil, hər zaman dərk etməliyik. Xalqın təəssübünü çəkən, mübarizə meydanının ön sıralarında Vətən, ana dili naminə qələmləri ilə cəngavərlik edən söz xiridarları onu sevdirərək yaşadırlar. "Millətin milliliyini qoruyub saxlayan onun dilidir", - deyən ümummilli lider Heydər Əliyev ana dilimizi, onun saflığı uğrunda mübarizə aparan qələm sahiblərini yüksək qiymətləndirmiş, bu dildə danışmağı fəxr bilmiş, 2001-ci il avqustun 9-u Azərbaycan əlifbası və dili gününün təsis edilməsi haqqında fərman imzalamaqla ona sevgisini bir daha bildirmişdir.

Prezident İlham Əliyev də ana dilini yüksək qiymətləndirərək xalqımızın inkişafında onun böyük rolu olduğunu bildirir: "Xalqımızı xalq kimi, millət kimi qoruyub saxlayan bizim ənənələrimiz olub, tariximiz olub, ədəbiyyatımız, ana dilimiz və mədəniyyətimiz olub".

Dilimiz varlığını qorumaq üçün mübarizə aparmış, inkişaf edərək söz sənətinin, qüdrətli sənətkarların, mütərəqqi mədəniyyətin, çoxsahəli dünyəvi elmin dili səviyyəsinə yüksəlmişdir. Gəlin xalqımızın əsrlər boyu qoruyub bizlərə əmanət etdiyi mənəviyyatın, ədəbiyyatın və adət-ənənələrin ifadə vasitəsi olan doğma dilimizi sevərək qoruyaq, yad dillərin təsirindən uzaqlaşdıraq, bizə etibar edilən əmanəti gələcək nəsillərə çatdıraraq vətəndaşlıq borcumuzu yerinə yetirək.

Universitetimiz hər zaman milli təfəkkürün oyanmasında, vətənimizin, dilimizin qorunmasında güclü ideologiya nümayiş etdirmiş, ana dilidən istifadənin intensivləşdirilməsi istiqamətində təqdirəlayiq işlər görmüşdür. Biz onu sevməyi, qorumağı müəllimlərimizdən öyrəndik. I kursda oxuyarkən nitqimizə bəzən rus dilində işlətməyə adət etdiyimiz kəlmələri əlavə etdikdə müəllimlərimiz deyirdi: "Siz bu dövlətin gələcəyisiniz. Müxtəlif dilləri öyrənməyiniz yaxşı haldır. Lakin dilinizin təəssübünü çəkmək də ilk növbədə sizin üzərinizə düşür. Milli, mənəvi dəyərlərimizi qorumaqda nümunə olun! Dilimizi sevməklə, öyrənməklə kifayətlənməyin, onu qoruyun və sevdirməyi bacarın". Bizə dilimizi sevdirən müəllimlərə təşəkkürümüz dilimizin təbliği istiqamətində apardığımız işlərdir. Təhsil müəssisələrində, xüsusən universitetimizdə təhsil alan xarici ölkələrin təmsilçilərinin ana dilimizə artan diqqət və marağı, onu öyrənmək həvəsində olmaları bizim uğurumuzdur.

Ümummilli liderimiz Heydər Əliyev hər bir Azərbaycan gəncinin çox dil bilməsini, ilk növbədə isə öz ana dilini bilməsini arzu etmişdi. Onun xalqımızın milli sərvəti kimi dəyərləndirdiyi universitetimizdə müxtəlif dillərin öyrənilməsi məsələsinə böyük əhəmiyyət verilməklə yanaşı, dilimizin saflığının qorunması, dövlətçilik ənənələrimizə bağlılıq məsələlərinə hər zaman diqqətlə yanaşılır. Qəlbimizin nəğməsinə çevrilən Dədə Qorqud əmanəti, Füzuli zirvəli, Vaqif vüqarlı, Vurğun heyranlıqlı, Bəxtiyarlı dilimizi sevərək öyrənək, zənginliyindən bəhrələnək, həvəslə sevdirək.

**İlahə Dadaşova,**
**filologiya fakültəsinin dissertantı**

# İnsan həyatında komplekslərin rolu

**Kompleks - psixoloji narahatlıq, gərginlikdir.** İnsanın özünün fiziki və psixoloji çatışmazlıqları haqda səhv təsəvvürləri, onların şişirdilməsidir. Kompleks sözü elmə psixoanalizdən gəlib. İlk dəfə kompleks sözünə Z.Freydin və K.Q.Yunqun əsərlərində rast gəlinib. Yunq özünün "Sərbəst assosiasiyalar" metodunu tətbiq edərkən kompleksi aşkarlamışdı. Yunqa görə, insanın beynində duyğular, düşüncələr qrupu vardır ki, bu qruplara da o, "kompleks" adı verdi. **Komplekslər insanın şüuraltında yaranır, orada da inkişaf edir.** Ona görə də biz çox zaman komplekslərimizi dərk edə bilmirik. Həyatımızda önəmli yer tutan komplekslər insan yad, təcrübəsiz situasiya ilə qarşılaşdığında, özünü təzyiq altında hiss etdiyində ortaya çıxır. Kompleks insanların yaşına, təhsil səviyyəsinə, həyat standartına, cinsiyyətinə görə dəyişir. Gündəlik həyatda özünü digərlərindən aşırı dərəcədə üstün hesab edən (və ya əksinə), özünü lazımsız yerə müdafiə edən, cəmiyyəti özünə düşmən kimi qəbul edən, özünü daim günahlandıran, cinsi münasibətlərdə problemləri olan insanları kompleksli insanlar hesab etmək olar. İnsanlarda bu kimi komplekslərin yaranmasının səbəblərinə baxsaq, ilk növbədə, burada ailə faktorunun böyük rol oynadığını görərik. Çünki uşaqlıq dönəmində keçirilən psixoloci sarsıntılar, travmalar həmin uşaqda gələcəkdə bir sıra problemlərin meydana gəlməsi ilə nəticələnir. Əgər valideyn övladına: "Sən bunu edə bilməzsən", "Sənin buna gücün çatmaz", "Sən hələ uşaqsan" və s. bu kimi sözlər deyirsə, təbii ki, uşaqda özünü qiymətləndirmə qeyri-adekvat olacaq. Artıq uşağın özünə inamı azalacaq. **Bu da gələcəkdə özünü digərlərindən aşağı görməsi fikrinə - aşağılıq kompleksinə gətirib çıxaracaq.** Uşaq daim özünü digərləri ilə müqayisə edəcək və nəticədə real olmayan fikrə - onun başqalarından bacarıqsız, gücsüz, aşağı olması fikrinə gəlib çıxacaq. Özünə inamı az olduğu üçün bacara biləcəyi işləri belə etməkdən çəkinəcək. Və artıq cəmiyyətdən təcrid olunmağa başlayacaq. Tənhalığa meyilli olacaq. Burada müəllimlərin (xüsusilə ibtidai sinif müəllimlərinin) də rolu böyükdür. Bəzi müəllimlər uşaqların psixologiyasına təsir edirlər. Məsələn, mən öz məktəb illərimdə gördüyüm və indi də unuda bilmədiyim bir hadisəni nümunə göstərim. Müəllim dərsdə yazı işi verirdi və yazıb qurtardıqdan sonra elə dərsdəcə sıra ilə yoxlayırdı. Yoxladığı müddətdə ən yaxşı yazan və ən pis yazan uşaqların dəftərlərini bizə nümunə göstərirdi ki, "Siz də belə yaxşı yazın" və ya "belə pis yazmayın, yoxsa pis qiymət alarsınız". **Bunun nəticəsidir ki, artıq yeniyetməlik müddətində, abituriyent hazırlığa gedərkən testdə çıxan səhvlərinin hamısını müəlliminə deməkdən çəkinir.** Sual ortaya çıxır: "Niyə?" Çünki həmin uşaqların artıq şüuraltında yatan bəzi nüanslar var. Digərləri ilə özünü müqayisə etmə: "Birdən mən səhv çıxan testimi müəllimə deyərəm, digər uşaqlarda o düz çıxmış olar və mənə gülərlər, ya müəllim elə düşünər ki, mən o birilərindən zəifəm. Yaxşısı budur, sual verməyim. Onsuz da bu, qəbulda mənə düşməz" və s. bu kimi fikirlərə gəlirlər. Bunun üçün müəllimlər, xüsusilə də ibtidai sinif müəllimləri uşaqlarla işləyərkən daha ehtiyatlı olmalı, uşağın xarakterinə, potensialına uyğun davranmalıdır ki, gələcəkdə problemlər yaranmasın.

**Bəzən ailələr uşaqlara həddindən artıq qayğı, sevgi göstərir, uşaqlarını digərlərinin yanında daim tərifləyirlər. Təbii ki, bunun özü də müəyyən dərəcədə yanlışdır.** Bu davranış nəticəsində uşaqlarda özünü digərlərindən üstün tutma hissi - üstünlük kompleksi yaranacaq. Üstünlük kompleksi - insanın özünün digərlərindən daha özəl, daha əlçatmaz, daha fərqli olduğunu aşırı dərəcədə düşünməsi hissidir. Bu tip insanlar özlərini cəmiyyətdən şüurlu şəkildə təcrid edir, tək olmağa meyilli olurlar. Çox insanla ünsiyyətə girmirlər. Çünki həmin insanları özlərinə uyğun bilmirlər. Digərlərindən üstün olduğunu həddindən artıq düşünmə hissi getdikcə eqoistliyə çevrilir və bəzən də insanların depressiyaya düşməsinə səbəb olur. Komplekslər daha çox özünü yeniyetməlik dövründə büruzə verir. Bu dönəmdə insan bəzi problemləri böyüdərək kompleks halına gətirir. Məsələn, boy, çəki, xarici görünüş və s. kimi xırdalıqları kompleks halına gətirib çıxaracaq qədər böyüdürlər. Amma müəyyən müddət keçdikdən sonra bunların əslində o qədər də böyüdülməsi lazım gəlmədiyini görürlər. Məşhur psixiatr Z.Freyd psixoseksual nəzəriyyəsinə əsaslanaraq komplekslərin izahını verir.

(ardı var)

**Sevda Cəlilzadə**
**sosial elmlər və psixologiya, II kurs**



*Bakı Dövlət Universitetin "Bakı Universiteti" qəzetinin müəlliməsi Afət Viləşsoyun (Abuşova) kitabı isə işıq üzü görüb. Kitabda 2010-2012-ci illərdə yazdığı yeni şeirləri çar olunub. Həmçinin şairənin "Ulduz" jurnalı, "Ədəbiyyat", "Kaspi" qəzetlərində işıq üzü görmüş şeirləri də bu kitabda yer alır.*

## "Söyüd balası"

Bizim hisslərimiz yaz yağışıdır,
Belə duyğulara qadağa düşür.
Küsüb barışanda yana baxırsan,
Əlin ürəyindən qabağa düşür.

Tanıya bilmirəm həmin adamı,
Yayın ortasında qar axtarırsan,
Sənə yad gəlirəm, söyüd balası,
Alma ağacında nar axtarırsan.

Çıxar içindəki kini, qoruyum
Kölgənin qoynuna girəndə səni.
Elə et, yağışı göydə saxlayım,
Əlim axtarılsın görəndə səni.

Ay söyüd balası, nəyəm səninçün?
Nağıl dünyasıyam, ya masal yeri?
Sırınmış ümiddə yüz iynə yatır,
Xəlbir eləmisən Tanrısal yeri.

## QAÇIRIQ

Yaradılmışların ən alisi övladi bəşər,
Gərək idrak edə Allahı rəhimdir nə qədər,
Aça dərgahına əl,tövbə edə şamu səhər,
Təki şirk ilə qul haqqından edə qəlbi həzər...
Əfv edər hər günahı kim qapısın döysə əgər,
Bizsə Rahmani Rəhimdən,Həlimdən qaçırıq.

Yücə Qurani-Kərim Rəbbi ziyarətdi bizə,
Ulu Peyğəmbərimizdən pak əmanətdi bizə,
O böyük lütfi-Xuda, rahı-hidayətdi bizə,
Ruzi Məhşərdə ziyasıyla şəfaətdi bizə,
Çeşmi hikmətdi, hökm, elmi bəraətdi bizə,
Biz fəqət nəfsə uyub şahı elmdən qaçırıq.

Hökmü İslamdır edən bəndəni əxlaqı gözəl,
Buyurur pak yola gəl, "həyyü əla xəyrül əməl",
Qoy könül mülkünün inşasına səbr ilə təməl,
Ömrü üqbayə tələs, qoyma bu dünyaya məhəl...
Agahıq kölgə tək izlər bizi hər vaxtı əcəl,
Yenə acizləşirik, vaxtsız ölümdən qaçırıq.

**İsa Əliyev,**
**Tətbiqi-riyaziyyat və kibernetika fakültəsi, III kurs**

## Həyat

Döyüldü qapım birdən:
- Həyat, gələn sənmisən?
Mənə nə gətirmisən:
Ölümmü, yaşammı? Sən
Ölümmü, yaşammısan?
Qaramısan, ağmısan?
Yoxsa boz geyinmisən?
Bilməcəmisən, nəsən?!
Necə güvənim sənə?
Necə açım qapımı?
Ağrı, acı axını.
Üzərində qurmusan
Yalanların taxtını.
Həyat, həyat! Ah, həyat!
Simandan xosbəxtliyin pərdəsini tez çıxart!
Uzaq etmisən mənə,
Həyat, sən hər yaxını.
Gəl boşuna xərcləmə
Mənimlə sən vaxtını.
Burax, burax yaxamı,
Açmayacam qapımı!

**Nərmin Bayramlı,**
**biologiya fakültəsi, II kurs**

# Mənliyin savaşı

Qoca hindu balaca nəvəsinə baxaraq deyir:

Hər insanın içində iki canavar var, biri şəri biri isə xeyiri təmsil edir. Onlar dünya yaranandan savaşdadırlar.

Nəvəsi fikrə gedən babasından soruşur:

Baba bəs hansı qalib gəlir?

Qoca hindu balaca nəvəsinə baxaraq deyir:

Hansını qəlbində bəsləyirsənsə o da qalib gəlir.

Kiçik hekayələr belə dərin hislər gölünə daş ata bilərmiş. Gözlərim dünyaya baxır, qulaqlarım hər şeyi duyur, beynim qavrayırsa niyə sus deyir dodaqlarıma, niyə görünməz möhür vurur duyğularıma.

Danışır elə hey danışır. O bilmir ki, hər şey nihandır mənə. Bu səs kimin səsidir? Kimsə elə hey danışır daxilimdə. Qəlbimdə yandırdığım şam işığında susdura bilmədiyim kəlimələr ikinci mənə çevrilir. Yox bəlkə də bu mən deyiləm. Gördüklərim eşitdiklərimi anlayır, gözlərim qaranlıqdakı gizli işığı ayırd edə bilir. Bəs niyə daxilimdə savaşır iki ayrı mən?Necə də qəribədir elə deyilmi, hamıya doğma olan mənə yad, hamıya yad olansa mənə doğma. Bəzən otağımda qaranlığın sükutuna sığınıram, sükutun dözülməz səsi mənliyimin savaşına dur deyir. Doğma və yad onlar əzəldən əks yaranmışlar axı. Bir cisimdə iki ruh, biri cismin hərəkətlərinə doğma, digəri cismi təkzib edən yad. Axı nə vaxt bitəcək savaş? Sülhün yolunu gözləyir cism. Doğma və yad arasında körpüdür axi o. Bu dözülməz savaşın qurbanı cism. Olum hökmü iлə bitsə ölüm, bitəcəkmi bu savaş? Bu savaşda bütün yaralar, iztirablar onaydı artıq fəryad edir cism. Onun fəryadı susqunluğa çevrilib. Susaraq fəryad etmək mümkündürmü? Fəryad və sükut eyni ruhu paylaşa bilərmi?

**Qızılgül Sarıyeva,**
**jurnalistika fakültəsi, II kurs**

# Etibarsızdır

Geologiya fakültəsinin I kurs tələbəsi Əhmədxanlı Nigar Mobil qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.
Cografiya fakültəsinin IV kurs tələbəsi Rəhimli Səyavuş Şahmurad oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.
Ekologiya və torpaqşünaslıq fakültəsinin I kurs tələbəsi Sadıqlı Səadət Şakir qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.
Ekologiya və torpaqşünaslıq fakültəsinin IV kurs tələbəsi Rizayeva Afaq Feyzi qızına məxsus qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.
Geologiya fakültəsinin II kurs tələbəsi Əliyarlı Rəna Xalıq qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.
İlahiyyat fakültəsinin III kurs tələbəsi Ceyran Yaşar qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.
Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin II kurs tələbəsi Zülfüqarlı Aelita Məhəmməd qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.
Jurnalistika fakültəsinin III kurs tələbəsi Vəliyeva Şəhla Cavanşir qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.
Biologiya fakültəsinin I kurs tələbəsi İmamalıyeva Əfsanə Elxan qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.
Kimya fakültəsinin I kurs tələbəsi Bayramov Elvin Ceyhun oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.
Tarix fakültəsinin II kurs tələbəsi Məmmədov Qulamhüseyn Qismət oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.
Kimya fakültəsinin II kurs tələbəsi Əsədova Gülşən Azər qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etbiarsız sayılır
Mexaniya-riyaziyyat fakültəsinin I kurs tələbəsi Paşayeva Nilufər Hətəm qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.
Jurnalistika fakültəsinin III kurs tələbəsi Vəliyeva Şəhla Cavanşir qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.
Coğrafiya fakültəsinin II kurs tələbəsi Teymurlu Nisə Ələkbər qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.
Fizika fakültəsinin III kurs tələbəsi Bayramova Emiliya Oleq qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.
Mexanika-riyaziyyat fakültəsinin II kurs tələbəsi Cəfərli Əfşan Nazim qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.
Fizika fakültəsinin IV kurs tələbəsi Ağaliyev Ağali Fariz oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.
Coğrafiya fakültəsinin III kurs tələbəsi Məmmədova Aysel Amil qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.
Tarix fakültəsinin IV kurs tələbəsi İbrahimova Ayşən Elşən qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.
Kitabxanaçılıq-informasiya fakültəsinin II kurs tələbəsi Yusibova Xumar Müslüm qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.
Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin II kurs tələbəsi Məmmədli Zeynalabdin Murtuza oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.
Fizika fakültəsinin III kurs tələbəsi Şirinzadə Ayşə Tofig qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.
Fizika fakültəsinin III kurs tələbəsi Sadıqova Züleyxa Eldar qızına məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.
Fizika fakültəsinin III kurs tələbəsi Qocalar Rəşad Rauf oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.
Sosial elmlər və psixologiya fakültəsinin II kurs tələbəsi Hüseynov Teymur Asif oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.
Jurnalistika fakültəsinin V kurs tələbəsi Muxtarova Xanım Zahid qızına məxsus tələbvə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.
Hüquq fakültəsinin II kurs tələbəsi Muradbəyli Sənan Nizami oğluna məxsus tələbə vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Özünü fəth etməyi bacar!

# Bakı Universiteti

№ 02 (1438) 26 mart 2013-cü il

SON səhifə

Yeni nəşr

## Solmaz Babaşovanın kitabı nəşr edilib




**Cəmi 27 il ömür sürmüş mərhum jurnalist Təranə Qasımovanın (Niftalıqızının) xatirəsinə həsr olunmuş "Yoxluğunu bilə-bilə.." adlı kitab çapdan çıxıb.**

1990-cı ildə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini bitirən və cəmi iki il sevib-seçdiyi sahədə işləyən Təranə Niftalıqızının vəfatının 20 illiyi ilə əlaqədar yazılmış kitabda doğmalarının, tələbə yoldaşlarının, həmkarlarının onun haqqında yazdıqları xatirələrlə yanaşı, mərhum jurnalistin bir zamanlar mətbuat səhifələrində dərc olunmuş müxtəlif səpgili yazıları da toplanıb. Kitabda, həmçinin filologiya elmləri doktoru, professor İsmayıl Öməroğlunun (Vəliyev), Knyaz Alsanın və başqalarının şeirlərindən də istifadə olunub.

***"Yoxluğunu bilə-bilə..." adlı kitabın müəllifi mərhum jurnalistin tələbə yoldaşı, "Bakı Universiteti" qəzetinin əməkdaşı Solmaz Babaşovadır.***

## Şərq alimlərinin elmə verdiyi ilk töhfələr

*İslam aləmində elm nominasiyası üzrə Nobel mükafatına layiq görülmüş cəmi bir alim var (Əbdüs Səlam-Pakistan). Amma bu o demək deyil ki, elm özlüyündə həmişə Qərb aləminə məxsus olub. Şərq aləmi və aliminin elmə verdiyi töhfələr indi də öz aktuallığını qoruyub saxlayır.*

*"Bakı Universiteti" Şərq alimlərinin ayrı-ayrı dönəmlərdə və sahələrdə etdiyi ixtiraları sizlərə təqdim edir.*



**İlk kağız fabrikini yaradan alim** - İbn Fazil

**Qızılca və çiçək xəstəliyini kəşf edən alim** - Fəxrəddin Razi

**Mikrobu ilk aşkarlayan alim** - Akşəmsəddin

**Cüzam xəstəliyini kəşf edən alim** - İbn Cəssar

**Vəbanın yoluxucu olduğunu tapan alim** - İbn Natiq

**Vərəm mikrobunu kəşf edən alim** - Kambur Vəsim

**Gözdəki tor qişasını kəşf edən alim** - İbn Rüşd

**İlk göz əməliyyatını həyata keçirən alim** - Əmmar

**İlk xərçəng əməliyyatını həyata keçirən alim** - Əli ibn Abbas

**Kiçik qan dövranını kəşf edən alim** - İbn Nəfis

**İlk xəstəxana yaradıcısı** - Əli ibn Ridvan

**Sıfırı ilk istifadə edən alim** - Xarəzm

**Triqonometriyanı ilk kəşf edən alim** - Bəttani

**Tangens, kotangens və kosekantı ilk istifadə edən alim** - Əbül Vəfa

**Triqonometriya kitabını yazan alim** - Nəsirəddin Tusi

**İlk triqonometrik çevrilmə düsturunu kəşf edən alim** - İbni Yunis

**Binom düsturunu ilk kəşf edən alim** - Ömər Xəyyam

**İlk difrensiallama kitabını yazan alim** - Sabit ibn Qurra

**Onluq kəsri ilk kəşf edən alim** - Qiyasəddin Cəmşid

**İlk teleskopu kəşf edən alim** - Zərkali

**Dünyanın fırlandığını kəşf edən ilk alim** - Əl Biruni

**Dünyanın çevrəsini ilk ölçən alim** - Musa Qardaşları

**Günəşin üzündəki ləkələri ilk kəşf edən alim** - Fərqani

**Ulduzların mövqeyini ölçən və ilk xətkeş hazırlayan alim** - Cabir ibn Əflah

**İlk avtomatik idarə sistemləri hazırlayan alim** - Əhməd ibn Musa

**Kibernetikanı ilk quran alim** - İsmayıl Əl-Cəzəri

**İlk optik cihazın təməllərini qoyan alim** - İbn Heysəm

**Səsin fiziki şərhini ilk verən alim** - Fərabi

**İlk torna dəzgahını kəşf edən alim** - İbn Qərra

**Qanadlarla uçan ilk alim** - Həzərfən Əhməd Çələbi

**İlk təyyarəni hazırlayan alim** - Əbu Firnas

**Yerin cazibə qüvvəsini kəşf edən alim** - Razi

**Rəqqaslı saatı ilk kəşf edən alim** - İbn Yunis

**Maddələrin spesifik ağırlığını ilk hesablayan alim** - Həzini

**Atomun parçalana biləcəyənin ilk kəşf edən alim** - Cabir ibn Xəyyam

**Göy qurşağını ilk açıqlayan alim** - Qütbəddin Şirazi

**İlk kimya laboratoriyasını yaradan alim** - Cabir

**Saf spirti ilk əldə edən alim** - Razi

**Fosforu ilk kəşf edən alim** - Bəşir

**Topu ilk kəşf edən alim** - Fateh Sultan Mehmet

**İlk qitə səyahətnaməsini yazan alim** - İbn Bətutə

**İlk dünya xəritəsini çəkən alim** - Mürsiyəli

**İlk əczа kitabını yazan alim** - İbn Baytar

## Azərbaycan alimi beynəlxalq elmi konfransda məruzə edəcəkdir

Tarix elmləri doktoru, Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasının professoru Musa Qasımlı martın 27-dən 29-dək Rusiyanın Nijni Novqorod şəhərində keçirilən beynəlxalq elmi konfransda iştirak edəcəkdir. N.Lobaçevski adına Nijni-Novqorod Dövlət Universitetinin təşkil etdiyi konfransa 20-dək ölkənin alimləri qatılacaqlar.

AzərTAc xəbər verir ki, tədbirin açılış günündə azərbaycanlı alim "Böyük Britaniyanın Azərbaycan siyasəti (1918-ci il)" mövzusunda məruzə edəcəkdir. M.Qasımlı, həmçinin universitetin regionşünaslıq ixtisasının tələbələri üçün "Azərbaycanın xarici siyasəti: əsas istiqamətlər" mövzusunda mühazirə oxuyacaqdır.

## İnci xəzinəsindən ərmağan



*Şəfqət və mərhəmətdə günəş kimi ol,*
*Qüsurları örtməkdə gecə kimi ol,*
*Dostluq və qardaşlıqda axar su kimi ol,*
*Təvazödə torpaq kimi ol,*
*Hiddət və qəzəbdə ölü kimi ol,*
*Hər nə olursan-ol, ya olduğun kimi görün, ya göründüyün kimi ol!*

***

*Gəl, gəl, yenə gəl! Kim olursan-ol, yenə də gəl,*
*İstər xristian, istər məcusi, istər bütpərəst ol,*
*Bizim dərgahımız ümidsizlik dərgahı deyil,*
*Tövbəni yüz dəfə pozmuş olsan belə, yenə gəl!*

***

*Əgər bəqa istəyirsən, dünyanı,*
*Liqa istəyirsən, uqbanı tərk et.*
*Əgər Allahı istəyirsən, dünyanı da, uqbanı da,*
*Bütün könvü-məkanı da tərk et*
*Və elə gəl bizə.*

***

*Allah ilə dost olduqdan sonra ölüm də, ömür də gözəldir.*

***

*İçdəki kiri su deyil, ancaq göz yaşı təmizləyər.*

***

*Aşiqlərin könüllərinin yanması və göz yaşları olmasaydı, dünyada nə su olardı, nə də od.*

*Mövlana Cəlaləddin Rumi*

## QƏNAƏT

*Qənaət bitib-tükənməz sərvətdir.*
*Həzrəti Mühəmməd (səllallahu əleyhi və ali vəsəlləm)*

*Qənaətə riayət edən yoxsul olmaz*
*Həzrəti Mühəmməd(səllallahu əleyhi və alihi vəsəlləm)*
*Ey Füzuli, mən qənaət mülkünün sultanıyam,*
*Səltənət isbatı əynimdə pəlasi-fəqir bəs.*

*Məhəmməd Füzuli*
*Azərbaycan şairi və mütəfəkkiri*

*Qənaət sahibi olmayan acgözlər bir tikə çörək üçün dövlətlilərin qapılarındakı köpəklərlə boğuşmalıdır*

*Məhəmməd Füzuli*
*Azərbaycan şairi və mütəfəkkiri*

*Qənaət etmək işləmək qədər əhəmiyyətlidir.*

*Jan Jak Russo*
*Fransız filosofu və mütəfəkkiri*

*Yer üzündəki bütün iztirablar aza qənaət etməməkdən doğar.*

*Əbülqasim Firdovsi*
*ran şairi*

*Qənaətin qədrini bilməyən heç nə əldə edə bilməz.*

*Zeynalabdin Şirvani*
*Azərbaycan coğrafiyaşünası və səyyahı*

**Baş redaktor:** Anzulə ƏMİROVA

**Redaksiya heyəti:** Solmaz Babaşova, Aynur Qurbanqızı, Tamilla Müslümova, Salam Muxtarov, Kəramət Böyükçöl

**Redaksiyanın ünvanı:** Bakı, akad. Zahid Xəlilov küç. 23, BDU-nun əsas binası, III mərtəbə
**Tel.:** 439-03-64, 439-04-78
e-mail: BU_press@bsu.az

**Sifariş: 163**
**Tiraj: 2000**

VÖEN: 990000213
Lisenziya №-022708
Qəzet "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunur.
Əlyazmalar geri qaytarılmır